Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *Görkəmli maarif və mədəniyyət xadimi*

**Sultanməcid Qənizadənin 150 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2016**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru**
**və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

***Görkəmli maarif və mədəniyyət xadimi – Sultanməcid Qənizadə:*** metodik vəsait / tərt.ed. A.Əliyeva, S.Əhmədova; red. S.Məlikzadə, ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.-24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən

Azərbaycanda maarifçilik cərəyanının ilk çağları XIX əsrin sonları və XX əsrin əvvəllərinə təsadüf edir. Bu cərəyanının görkəmli nümayəndələrindən biri Sultanməcid Qənizadə olub. O, dövrünün bir çox ziyalılarından fərqli olaraq, çoxşaxəli fəaliyyəti ilə seçilib. Maarif və teatr xadimi, pedaqoq, yazıçı, tərcüməçi, jurnalist Sultanməcid Qənizadinin bu il 150 illik yubileyidir.

Sultanməcid Qənizadə 1866-cı ilin aprel ayında Şamaxı şəhərində, tacir Hacı Murtuzəli kişinin ailəsində dünyaya gəlib. Tədqiqatçıların yazdıqlarına görə, Sultanməcidin ulu babası Ağa Məsih Şirvani Şamaxının tanınmış şairlərindən olub. Ədibin bəzi məqalələrində "Məsihzadə" imzası ilə yazması da bu varisliyə işarədir. Sultanməcidin atasının da elmə, maarifə böyük marağı varmış. Sultanməcidin ilk müəllimi də elə atası olub. O, əvvəlcə oğluna yazıb-oxumaq öyrədib, sonra da onu şəhərdəki müxtəlif məktəblərdə oxudub, bir neçə dilin öyrədilməsinə nail olub.

Sultanməcid Qənizadə rus dilini mükəmməl bildiyindən 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olub. Qeyd edək ki, bu institut 50 ilə yaxın bir müddətdə ətraf vilayətlərin şəhər məktəbləri üçün müəllim kadrları hazırlayıb. O vaxt müsəlmanların şəhər məktəblərində müəllim işləməsi çar hökuməti tərəfindən qadağan edildiyindən Sultan Məcid Qənizadə və tələbə dostu, yaxın silahdaşı Həbibbəy Mahmudbəyovla birlikdə kənd məktəbinə təyin ediliblər. Bu haqsızlıqla razılaşmayan dostlar Bakıya gələrək 1887-ci ildə "Rus-Tatar məktəbi" adlı ibtidai təhsil ocağının yaradılmasına

nail olublar. Bu maarif ocağının işığı tezliklə yurdumuzun bir sıra bölgələrinə yayılıb.

Azərbaycan maarifinin ağırlığını çiynində şərəflə daşıyan Sultanməcid Qənizadə bir müddət Qori Müəllimlər Seminariyasında, sovet hakimiyyəti illərində isə respublikanın Xalq Maarif Komissarlığında çalışmış, müxtəlif elmi cəmiyyətlərin və komissiyaların üzvü olmuşdur. Azərbaycan müəllimləri arasında böyük hörmətə və nüfuza malik olan bu qocaman maarif xadiminə hamı ehtiramla "Mirzə Məcid" deyə müraciət edərmiş.

Sultanməcid Qənizadə həm də mədəniyyət xadimi idi. Azərbaycan teatrının inkişafında onun böyük xidmətləri olmuşdur. O, neçə-neçə istedadlı gəncin səhnəyə gəlişinə kömək göstərmişdir. Görkəmli aktyor Hüseyn Ərəblinskinin teatra gəlməsində də onun rolu olmuşdur. Qeyd edək ki, Hüseyn Ərəblinski ilk dəfə məhz Sultan Məcid Qənizadənin rejissorluğu ilə hazırlanmış “Vəziri xani-Lənkəran” komediyasının tamaşasında (1898) Mehtər Kərim rolunu oynamışdır. Araşdırmalar göstərir ki, S. Qənizadə həm gözəl rejissor, həm də istedadlı dramaturq olmuşdur. Təəssüf ki, onun bu sahədəki fəaliyyəti yetərincə tədqiq edilməyib.

Sultanməcid Qənizadə tərcüməçi işini də yaxşı bacarmışdır. O, 1894-cü ildə böyük rus yazıçısı Lev Tolstoyun “Əvvəlinci şərabçı” pyesini tərcümə etmiş, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur. Bu da Azərbaycan teatrı tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olmuşdur. Onu da əlavə edək ki, S. Qənizadə müasiri Lev Tolstoyla sıx əlaqə saxlamış, onunla məktublaşmışdır.

Məlumata görə, Sultanməcid Qənizadənin qələmə aldığı ilk pyes “Qönçə xanım” adlanıb. Təəssüf ki, həmin əsər indiyədək

tapılmayıb. Rus ədiblərindən etdiyi tərcümələrlə yanaşı, Sultanməcid xalq nağılları əsasında uşaqlar üçün mənzum hekayələr də yazmışdır. Ən sanballı bədii əsəri isə "Məktubati-Şeyda bəy Şirvani" adlanır. Əslində bu, bioqrafik bir əsərdir. Romanın bütün məzmunu əsərin baş qəhrəmanı Şeyda Məsihzadənin gündəliklərindən ibarətdir. Tədqiqatçılar birmənalı olaraq təsdiqləyiblər ki, Şeyda bəy elə Qənizadənin özüdür. Roman "Müəllimlər iftixarı" və "Gəlinlər həmayili" adlı iki hissədən ibarətdir. Sovet dövründə bu romanın təhlili ziddiyyətli şəkildə aparılmışdır. Müəllifin fanatizmə, geriliyə qarşı yönəldilmiş tənqidi təqdirlənsə də, Allaha inamı qəbul edilməmişdir. Bu səbəbdən də Qənizadənin fikirləri "ziddiyyətli görüşlər" kimi qiymətləndirilmişdir.

Sultanməcid Qənizadə jurnalistliklə də məşğul olmuşdur. O, Qori Müəllimlər Seminariyasında işlədiyi illərdən başlayaraq mətbuatda müntəzəm çıxış etmişdir. Yazıları əsasən "Dəbistan" jurnalında çap olunmuşdur. Ədəbiyyatşünas Firudin Hüseynovun yazdığına görə, Sultanməcid Qənizadə Nəriman Nərimanovla  yaxından dostluq etmişdir. O, əqidə yoldaşı Həbibbəy Mahmudbəyovla birlikdə maarifçi bir mətbuat orqanı açmaq fikrində olmuşdur. 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının yaranışını alqışlayan və buna çox sevinən ziyalılarımızdan biri S. Qənizadə olmuşdur. Təəssüf ki, tədqiqatçılar "Molla Nəsrəddin"in yazarları haqqında araşdırma apararkən Sultanməcid Qənizadənin üstündən sükutla keçmişlər. Bu fikirdəyik  ki, belə bir jurnalın çıxmasına sevinən, Sabirlə dost olan, o dövrün müxtəlif mətbuat orqanlarında çıxış edən bir ədib "Molla Nəsrəddin" jurnalına nəsə yazmamış olsun. Bəlkə də naməlum qalan imzalardan biri Sultanməcid Qənizadəyə məxsusdur. Yəqin ki,

haçansa, tədqiqatçılar tərəfindən bu qaranlıq məsələyə bir aydınlıq gətiriləcək.

Sultanməcid Qənizadə böyük azərbaycanlı idi. O, müəllimliyə başladığı ilk gündən həyatını və yaradıcılığını millətinin oyanışına, tərəqqisinə, təhsilinə və işıqlı gələcəyinə bağlamışdı. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli yazırdı: “Qənizadə iqtidarlı bir ədib olduğunu bildirir. Əsərlərinin hər birində təzə fikirlər, vüsətli xəyallar, dərin mənalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik”. Bir çox həmkarından fərqli olaraq, S.Qənizadə yaradıcılığında da, pedaqoji fəaliyyətində də insanları Allahın buyurduğu şəriətlə yaşamağa çağırırdı. İnsan mənəviyyatını, əxlaqını önə çəkən Qənizadə dünyəvi elmləri yorulmadan təbliğ etməklə yanaşı, hər kəsi insaniyyətə, milliyyətə, Vətənə xidmətə səsləyərdi. O dövr yazıçılarının bir çoxunu məşğul edən problemlərdən biri də qadın azadlığı məsələsi idi. Sultanməcid Qənizadə müsəlman aləmində əsrlər boyu davam edən qadın geriliyinə son qoymaq üçün “Gəlinlər həmayili”ndə öz fikirlərini oxucuların mühakiməsinə vermişdi.

Xalqına göstərdiyi böyük xidmətlərə baxmayaraq Sultanməcid Qənizadə Stalin rejimi tərəfindən “xalq düşməni” adlandırılıb. Onun tərcümeyi-halında oxuyuruq: “S. Qənizadə 1937-ci ildə, 72 yaşında vəfat etmişdir”. Əslində Sultanməcid Qənizadə öz əcəli ilə vəfat etməmişdir. Ömrü boyu millətinə, xalqına, onun işıqlı gələcəyinə xidmət göstərən bu fədakar insan, günahsız olsa da, həbs edilərək, “xalq düşməni” kimi güllələnmişdir.

Yazarın Əli İskəndər Cabbarovla birlikdə qələmə aldığı “Kəlili ədəbiyyat” (müntəxabat), “İstilahi Azərbaycan”, “Lüğəti rusi və Azərbaycan (müsəlman)” və s. əsərləri

məktəblərdəki boşluğu qismən doldurmağa xidmət etmişdir. O, “Axşam səbri xeyir olar” əsəri ilə ədəbiyyat tariximizdə təbdilin əsasını qoymuşdur. Ən orjinal əsəri “Məktubati-Şeyda bəy Şirvani” romanıdır. Onun yaradıcılığında 1906-cı ildə “Dəbistan” jurnalında çap edilmiş “Allah xofu” hekayəsi xüsusi yer tutur.

Görkəmli maarifçi, yazıçı, pedaqoq Sultanməcid Qənizadənin anadan olmasının 150 illik yubileyi ilə bağlı bir sıra tədbirlər- kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər. Bu cəfakeş şəxsiyyəti sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə










tanıtmaq məqsədilə kitab sərgisi də təşkil oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “İttihadçı və türkçü Sultanməcid Qənizadə”, “Azərbaycanın böyük oğlu - Sultanməcid Qənizadə”, “Azərbaycan maarifinin ağırlığını çiynində şərəflə daşıyan - Sultanməcid Qənizadə”, “Hamıya örnək pedaqoq”, “Böyük azərbaycanlı- Sultanməcid Qənizadə” və s. Bundan başqa, Sultanməcid Qənizadənin müxtəlif illərdə çəkilmiş foto şəkillərindən ibarət stend və kitabları da sərgidə oxuculara çatdırılmalıdır. Ayrı-ayrı ədiblərin, alim və yazarların Sultanməcid Qənizadə haqqında yazdığı yazılar, söylədikləri sitatların da sərgidə nümayiş olunması vacibdir.

## Görkəmli şəxsiyyətlərin Sultanməcid Qənizadə haqqında söylədikləri:

“Məktubati-Şeyda bəy” sərlövhəsi ilə yazdığı “Müəllimlər iftixarı” və “Gəlinlər həmayili” adlı kitabçalar Qənizadənin iqtidarlı bir ədib olduğunu bildirir. Bu əsərlərin hər birisində təzə fikirlər, vüsətli xəyallar, dərin mənalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik.

**F.Köçərli,**
*maarifçi-pedaqoq.*

Biz hamımız Sultanməcidin rəhbərliyi ilə işləyirik. Onun evi bizim üçün ədəbiyyat və maarif mənzili idi. Bizim zəhmətimizi bu kişi çox çəkibdir. Bizi zəhmət və maarifə cəlb edən o olubdur, hamımızda ruh və fərəh oyandıran o olubdur.

**Nəriman Nərimanov,**
*yazıçı, dövlət xadimi*

Qənizadə Azərbaycan maarifinin ağırlığını çiynində daşıyan görkəmli ziyalılarımızdan biri olmuşdur. Azərbaycan müəllimlərinin bir neçə nəsli Qənizadəyə “Mirzə Məcid” deyə yüksək ehtiram hissi ilə müraciət etmiş, ondan öyrənmiş, ondan göstəriş almışlar. Rus dramaturgiyasını ilk dəfə səhnəmizə gətirmək şərəfi də Sultanməcid Qənizadəyə müyəssər olmuşdur.

**Abbas Zamanov,**
ədəbiyyatşünas, alim

Yenilikçi alim-filoloq və görkəmli publisist Sultanməcid Qənizadənin Azərbaycanda mədəni, ədəbi-ictimai fikrin inkişafında xüsusi mövqeyi vardır. Xalqlar dostluğunun ardıcıl təbliğatçılarından olan Sultanməcid Qənizadə rus və Azərbaycan xalqları arasında dostluq və qardaşılıq əlaqələrini daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məsələsinə xüsusi fikir verirdi.

**Bəkir Nəbiyev,**
*akademik*

Sultanməcid Qənizadə milli maarif və mədəniyyət tariximizə çox zəngin bir irs qoyub getmişdir. O böyük maarifçi olmaqla yanaşı, görkəmli dilçi, metodist alim, tanınmnış ədib və mühərrir kimi də maarif və ədəbiyyat tarixində iz qoymuş şəxsiyyətlərdən biridir.

**Misir Mərdanov,**
*elmlər doktoru*

Sultanməcid Qənizadənin əsərlərində zəmanənin nəbzi vururdu. O, həmişə zəruri problemlər irəli sürür və nəcib əxlaqi keyfiyyətlər təbliğ edirdi. Buna görə də əsərləri ədəbi ictimayyətin nəzərini cəlb edir, yaradıcılığı müasirləri tərəfindən yüksək qiymətləndirilirdi.

**Xeyrulla Məmmədov,**
*ədəbiyyatşünas*

Sultanməcid Qənizadə əsərlərində bədii ədəbiyyat, onun idrakı və tərbiyəvi əhəmiyyəti, insan qəlbinə və hissinə təsiri haqqında danışmağı da unutmamış və bu xüsusda bir sıra qiymətli və diqqətəlayiq mülahizələr irəli sürmüşdür.

**Hidayət Əfəndiyev,**
*filologiya elmləri doktoru*

Sultanməcid Qənizadənin yubileyi münasibətilə kitabxanada "Sultanməcid Qənizadə yaradıcılığında körpəlik pedaqogikası" adlı "dəyirmi masa" keçirilə bilər. Tədbirdə müəllimlər, pedaqoqlar, tələbələr, iştirak edə bilərlər. Tədbir iki ana xətdən ibarət olur.

I. Azərbaycan pedaqoqu, maarifçisi Sultanməcid Qənizadə və tərbiyə (cismani tərbiyə, mənəvi tərbiyə, valideyinlər və milli tərbiyə).

II. S.Qənizadənin pedaqogikaya baxışı və bu sahədə rolu.

Məruzəçilər bu mövzularda danışmaq üçün söz alırlar.

I məruzəçi: - Ümumi pedaqogikanın müstəqil bir elm kimi son zamanlar formalaşmasına baxmayaraq, onun tarixi çox keçmişə söykənir. Bütövlükdə "Pedaqogika" yunan sözü olub ədəbiyyatda "uşaq ötürən", "uşaq himayə edən" və yaxud "yönəldirəm, tərbiyə edirəm" mənasında işlənir. Sultanməcid Qənizadə isə bu sözü "lələ" adlandırır. O yazır: "Pedaqogika ləfzi yunan dilində "lələ" deməkdir ki, ibarətən tərbiyə elmi zəmnində istemal olunur". Çox maraqlıdır ki, "lələ" sözünə qardaş türk pedaqoji ədəbiyyatında, həmçinin Azərbaycan dastanlarında rast gəlirik. "Lələ" sözünə Azərbaycan aşıq dastanlarında da rast gəlirik. Məsələn, "Əsli və Kərəm" dastanında deyilir:

Ərzurumun gədiyinə varanda,
Onda gördüm burum-burum qar gəlir.
Lələ dedi: gəl bu yoldan qayıdaq,
Dedim dönmək namusuma ar gəlir.

Beləliklə, böyük maarifçi Sultanməcid Qənizadənin məqaləsində "lələ" sözü, fikrimizcə, çox yerində işlədilmişdir.
II məruzəçi: - Məlum olduğu kimi, pedaqogikanın bir elm kimi formalaşması çex pedaqoqu Y.A.Komenskinin adı ilə bağlıdır. Azərbaycan elmi-pedaqoji fikri tarixində isə bu məsələ Sultanməcid Qənizadənin (1866-1942) adı ilə bağlıdır. Sultanməcid Qənizadənin fikrincə, "pedaqogika ən mühüm və ən vəsi (yəni ən geniş, vüsətli) elmlərdən birisidir". Onun pedaqogika elminə verdiyi tərif də maraqlıdır. O, yazır ki, pedaqogika elmi insan tərbiyəsinin müxtəlif tərəflərini tədqiq edir. Bununla belə, əslində pedaqogika insan tərbiyəsinin iki əsas cəhətini öyrənir ki, bunlardan biri cism, yəni bədən tərbiyəsi, digəri isə ruh tərbiyəsidir. Göründüyü kimi, müəllif tərbiyənin iki növü - ruhi və cismani, müasir terminlərlə desək, mənəvi və fiziki tərbiyəni nəzərdə tutur. Müəllif fiziki tərbiyə ilə yanaşı, mənəvi tərbiyədən də ətraflı bəhs etməyi vəd etsə də, əsərdə yalnız fiziki tərbiyə məsələləri şərh olunmuşdur. Buna baxmayaraq, o, tərbiyənin hər iki növünü bir-birindən təcrid etmir, birini digəri üçün əsas hesab edirdi. Fikrimizcə, həqiqətən də insanın tərbiyəsində yuxarıda göstərilən hər iki cəhət əsas olub, aparıcı yer tutur. Müəllif bu iki cəhətdən birinin- fiziki tərbiyənin üzərində dayanır, onu daha geniş və ətraflı şəhr edir. Müəllifin fikrincə, bədən tərbiyəsi insanın sağlamlığına, uşağın daxili və xarici orqanlarının düzgün inkişafında xidmət edir.
III məruzəçi: - Sultanməcid Qənizadənin fikrincə, insanların şüuru, idrakı, fəhmi, uzaqgörmə qabiliyyəti, gözüaçıqlığı və s. hissləri onları digər varlıqlardan fərqləndirir və bu cövhərlərin bünövrəsi hələ ana bətnində ikən Allah tərəfindən qoyulur. Müəllifin fikrincə, insanın mövqeyi uca olduğuna görə, onun

tərbiyəsi də daim zəhmət və hünər istəyir. Sultanməcid Qənizadənin gəldiyi elmi-pedaqoji nəticələrdən biri də budur: "Tərbiyə işində cism tərbiyəsi ruh tərbiyəsindən müqəddəmdir. Belə ki, əgər bədən salamat olmasa, ruh asayişdə ola bilməz". Ümumiyyətlə, böyük maarifçinin fikirlərində körpənin bədən tərbiyyəsinə, xüsusilə də ana bətnində tərbiyəsinə, başqa sözlə, körpəlik pedaqogikasına ayrıca diqqət yetirilmişdir.

Bu görkəmli şəxsiyyəti sevdirmək, yaradıcılığını gənc nəslə tanıtmaq məqsədilə kitabxanada səhnəciklər də təşkil edilə bilər. Səhnəcik əsasən azyaşlı uşaqlar arasında keçirilir. Kitabxananın nağıl otağına yığışan uşaqlar mədəniyyət tariximizə görkəmli maarif xadimi, pedaqoq, yazıçı, metodist və bir sıra lüğətlər, dərsliklər və istilahlar müəllifi kimi daxil olan Sultanməcid Qənizadənin "Nağıl" adlı əsərinin səhnəciyinə baxa bilərlər. Bu zaman nağıl otağı əsərə uyğun bəzədilir. İlk olaraq kitabxanaçı uşaqlara Sultanməcid Qənizadə haqqında qısa məlumat verir. Daha sonra bədii hissəyə, səhnəciyə keçid alınır.

*Uşaqlar nağılın qəhrəmanlarına uyğun geyimlərdə səhnəyə çıxırlar.*

I iştirakçı: - Ay uşaqlar, balalar!
Dağda kəklik balalar...
Durun çıxın eşiyə,
Baxın Məstan pişiyə.
Quyruğu ilan kimi,
Gözləri mərcan kimi,
Tel-tel sarı bığları,
Şimşəkdir qulaqları.
Siçan görcək marıldar,
Quş görcəyin moruldar...

Görüz, o nə haldadır,
Nağıl hələ daldadır.
Bircə kişi var idi,
Başmaqları dar idi.
Çıxdı bir gün buz üstə,
Sürüşdü, düşdü diz üstə.

Kişi: - Ay buz, sən nə zalımsan!
Buz: - Zalım olsaydım, məni gün əritməzdi...
Kişi: - A gün, sən nə zalımsan!
Gün: - Zalım olsaydım, mənim üstümü bulud almazdı...
Kişi:  - A bulud, sən nə zalımsan!
Bulud: - Zalım olsaydım, məndən yağış yağmazdı...
Kişi:  - A yağış, sən nə zalımsan!
Yağış:  - Zalım olsaydım, məndən göy ot bitməzdi...
Kişi:  - Ay göy ot, sən nə zalımsan!
Göy ot :- Zalım olsaydım, məni qoyun-quzu yeməzdi...
Kişi: - Ay qoyun-quzu, sən nə zalımsan!
Qoyun-quzu: - Zalım olsaydıq, bizi qəssab kəsməzdi.
Kişi:  - A qəssab, sən nə zalımsan!
Qəssab: - Zalım olsaydım, məni çoban aldatmazdı...
Kişi:  - A çoban, sən nə zalımsan!
Çoban: - Zalım olsaydım, çarığımın bağın siçan kəsməzdi...
Kişi:  - A siçan, sən nə zalımsan!
Siçan: - Zalım olsaydım, məni pişik yeməzdi...
Kişi:  - A pişik, sən nə zalımsan!
Pişik: - Zalımam hay, zalımam.

Kürsü altı qışlağımdır,
Yük üstü yaylağımdır.

Yay günü yel əsəndə
Çardaqlar oynağımdır.
Qış günü qar yağanda
Mətbəxlər ovlağımdır.
Çilə çıxar, qış gedər,
Xəbər novruzdan yetər,
Murov-murov çağırram.
Miyau-miyau bağırram.
Tüstü qalxar ocaqdan,
Mən qalxaram bucaqdan.
Duraram hay, duraram,
Bığlarımı buraram,
Qarı nənə çölə çıxanda
Süd-qaymağın vuraram.

Yazıçını və onun əsərlərini azyaşlı oxuculara tanıtmaq məqsədilə kitabxanada "psixologiya saatı" da keçirmək olar. Tədbirdə azyaşlı uşaqlar iştirak edir. Psixoloq uşaqlara Sultanməcid Qənizadə haqda məlumat verir və əvvəlcədən seçilmiş hekayələrə - "Aslan və siçan" və "İtin nağılı"na keçid alır. O, ilk "Aslan və siçan"ın nağılını qiraətli bir şəkildə oxuyur.

Psixoloq: - "Aslan yatmışdı. Siçan onun üstündən yürüyüb qaçdı. Aslan oyanıb onu tutdu. Siçan başladı aslana yalvarmağa və dedi:

- Hərgah məni buraxsan, mən də sənə yaxşılıq elərəm. Aslan buna gülüb siçanı buraxdı. Bundan bir az sonra aslan tora düşüb başladı bağırmağa. Siçan aslanın bağırtısını eşidib gəldi və toru dişi ilə kəsib, aslanı qurtardı."

Nağılı bitirdikdən sonra psixoloq uşaqlara bir neçə sual verir:

- Uşaqlar, yazıçı bu nağılla oxucuya nə demək istəyir? Fikrinizi söyləyə bilərsinizmi?

I uşaq: - Yazıçı bizə çatdırmaq istəyir ki, qarşımızdakı insanı heç vaxt zəif, gücsüz bilməyin.

II uşaq: - Yazıçı demək istəyib ki, insan verdiyi sözə əməl etməlidir.

III uşaq: - Məncə, nağılda deyilən əsas fikirlərlərdən biri budur ki, insan gövdəsi, çəkisi ilə deyil, əməlləri ilə böyükdür.

Bundan sonra, psixoloq ikinci nağılı uşaqlara oxumağa başlayır.

Psixoloq: - "İt dişində bir parça ət aparırdı. Taxta körpü ilə çaydan keçəndə öz əksini suda görüb hayla bildi ki, sudakı özgə itdir. Onun dişindən artıq əti almaq üçün özünü suya tulladı, amma suda nə it, nə də ət tapmadı və öz ətini də itirdi".

Psixoloq nağılı bitirdikdən sonra, yenə uşaqlara müxtəlif səpkili suallar ünvanlayır:

- Uşaqlar, sizcə, itin səhvi nə idi? Nə üçün onun aqibəti belə oldu? İt nəyə görə aza qane olmadı? Müəllif bu əsərdə nə demək istəyir?

I uşaq: - Müəllif demək istəyir ki, gərək insan acgöz olmasın.

II uşaq: - Biz başqasının tikəsinə göz dikməməliyik.

III uşaq: - Düşünülmədən atılan addım səhv olur.

Psixoloq: - Bu nağıla uyğun hansı atalar sözlərini misal göstərə bilərsiz?

I uşaq: - Çox istəyən azdan da olar.

II uşaq: - Artıq tamah baş yarar.

III uşaq: - Tələsən təndirə düşər.

IV uşaq: - Yüz ölç, bir biç.

V uşaq: - Sonrakı peşmançılıq fayda verməz.

VI uşaq: - Özgəsinə quyu qazan özü düşər.

VII: - Ala qarğa çoxbilmişliyindən ilişər.

Sultanməcid Qənizadənin 150 illik yubileyi ilə əlaqədar keçirilə biləcək maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. "Qaranlığa işıq tutan maarifçi" adlı ədəbi-bədii gecədə alimlər, maarifçilər, jurnalistlər, sənət-söz adamları, oxucular və məktəblilər iştirak edə bilərlər.

Gecənin aparıcıları səhnəyə yaxınlaşırlar

*I aparıcı:* - Salam, dəyərli qonaqlar, bu il böyük maarifçi, pedaqoq, yazıçı-tərcüməçi, teatr xadimi Sultanməcid Qənizadənin anadan olmasının 150 illiyi tamam olur. Buraya da o fədakar insanın keçdiyi şərəfli ömür yoluna işıq salmaq üçün toplanmışıq. Sultanməcid Qənizadə çox qısa zamanda fəaliyyət sahələrinin hər birində uğur əldə etmişdir. Sadaladığımız adların hər birini ədibimiz öz gərgin zəhməti, dərin zəkası bahasına qazanmışdır.

*II aparıcı:* - O, "Qönçə xanım" adlı dramın, "Gəlinlər həmayili" adlı romanın, "Müəllimlər iftixarı" adlı publisist hekayənin, "Tülkü və Çaqcaqbəy" adlı ilk yumoristik mənzum uşaq hekayəsinin müllifidir. Sultanməcid Qənizadənin adı milli mədəniyyət və dövlətçilik tariximizə böyük maarifçi, bənzərsiz pedaqoq, əsl xalq müəllimi, məktəb və ədəbiyyat fədaisi, görkəmli maarif xadimi və təşkilatçısı, dilçi-metodist alim, tanınmış ədib, yazıçı, mühərrir, mütərcim, nəhayət, milli istiqlal mücahidi və dövlət xadimi kimi daxil olmuşdur.

*I aparıcı:* - Əziz qonaqlar, gəlin məktəblilərin ifasında böyük şəxsiyyət Sultanməcid Qənizadənin müdrik fikirlərini dinləyək.

*İştirakçılar səhnəyə yaxınlaşaraq öz yerlərini alırlar.*

"Çobanın sürüyə acığı tutanda kor keçini qabağa salır. Müəllimin evi kitabxanadır, dövlət kiçik şagirdlər, sazı və nəğməsi şagirdlərin sədası, qazancı isə millətin məhəbbət və ehtiramıdır. Müəllim dediyimiz zat mərifət külbəsinin (dünyasının) dərbanı (qapıçısı), nicat yolunun rəhbəridir. Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrət edən ata kimidir. Bizlər (millət) üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yansa gərəkdir. Cəhalət mülkünə əgər bir məhtab (ay) doğacaq isə, yenə məktəb divarından parlayacaqdır. Əgər sultanlıq istərsən, dəri-məktəbdə (məktəb qapısında) xadim ol! Əgər insanın malı gedə təəssüf olmaz, təəssüf olur, əgər abrusu tökülə".

*II aparıcı:* - Sultanməcid Qənizadənin öz yaradıcılıq taleyi, içtimai-pedaqoji fəaliyyəti ilə müasiri olan yazıçıların bir çoxundan fərqlənir. Onun yaradıcılığında, içtimai-pedaqoji görüşlərində bir sıra ziddiyyətlər vardır. Belə ki, S.Qənizadə yaradıcılığında və pedaqoji fəaliyyətində yorulmadan dünyəvi elmləri təbliğ etməsinə baxmayaraq, bəzən elmlə şəriəti eyniləşdirməyə meyl göstərir.

*I aparıcı:* - Azərbaycan milli ideyasının formalaşmasında mühüm rol oynayan mütəfəkkirlərimizdən olan S.Qənizadə (1866-1937) türklüyə və islama münasibətdə də özünəməxsus yer tutmuşdur. Hələ, 1880-ci illərin sonlarından başlayaraq Azərbaycan türklərinin maariflənməsi uğrunda mübarizəyə

başlayan Sultanməcid Qənizadə bu dövrdə digər Azərbaycan ziyalısı Həbib bəy Mahmudbəyovla birlikdə, 1887-ci ildə Bakıda «Rus-Tatar məktəbi» adlı ilk yeni tipli ibtidai təhsil ocağının əsasını qoymuşdur. Çünki bu dövrdə əsasən dini elmləri öyrədən mədrəsələr mövcud idi və orada da dərslər yalnız fars və ərəb dillərində keçirilirdi. Ancaq yeni tipli məktəbdə məşğələlər Azərbaycan dilində aparılır, eyni zamanda burada dünyəvi elmlər - coğrafiya, riyaziyyat, tarix və s. də keçirilirdi.

*II aparıcı:* - Bu məktəbin yaradılması Azərbaycan milli ideyasının inkişafına da müsbət təsir göstərmişdir. Məlumat üçün deyək ki, Məhəmməd Əmin Rəsulzadə də həmin məktəbin məzunlarından biri olmuşdur. Sultanməcid bəy Azərbaycan dilinin inkişafına da böyük diqqət yetirmiş, XX əsrin əvvəllərində onun «Lüğəti-rusi və türki», «İstilahi-Türki» və başqa kitabları nəşr olunmuşdur.

S.M.Qənizadə ilk dövrlərdə bir maarifçi kimi, daha çox cəmiyyətin savadlanmasına, elm və bilik sahibi olmasına çalışmışdır. Onun fikrincə, müəllimin əsil övladları öz uşaqları deyil, məhz şagirdləri olmalıdır. Eyni zamanda, müəllimin mal və dövləti dərs və təlimdir, müəllimin kəsb və icrəti isə millətinin rəğbətidir.

*I aparıcı:* - Sultanməcid Qənizadə deyirdi ki, artıq mədəniyyət əsrində Xacə Hafizin xətm etdiyi qəzəliyyat yolu ilə getmək, zülf və şövqlə mədhiyyələr oxumaq hünər deyildir. Artıq dünyəvi elmlərə meyil etmək, cəmiyyəti maarifləndirəcək əsərlər yazmaq lazımdır. Bu nəqsədlə Qənizadə bir sıra əsərlər - “Məktubati-Şeyda bəy Şirvani”, “Allah xofu” və s. yazmışdır. O, həmin əsərlərində də, ilk növbədə, yeni tipli məktəblərdən və həmin məktəblərdə dərs

deyən müəllimlərin milli ruhlarından bəhs etmişdir. Sultanməcid Qənizadə hesab edirdi ki, dini xurafat və mövhumatdan, cahillik və nadanlıqdan qurtulmağın ilk yolu yeni məktəblərin yaranmasından və həmin məktəbdə millətin övladlarına bilik vermək istəyən müəllimlərin olmasından başlayır.

*II aparıcı:* - Onun fikrincə, müəllim millətini cəhalətindən qurtarmaq üçün hər şeyi gözə almalıdır: “Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrin edən ata kibidir. Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilərsə, yaxşı müəllim kəctəb millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər”.

Hətta, Qənizadə müəllimliyi həccə getmək istəyən müsəlmanın vəzifəsindən də ağır vəzifə hesab etmişdir. Onun fikrincə, müəllim çox məsuliyyətli bir vəzifə daşıyır: “Müəllimliyə təklif olan şəxs həcc və zəkatə müstəti olmadıqda “kimləri öyrətdin və nə öyrətdin?” sorulub bazxast (tələb) olacaqdır. İnsafən müəllimlik təklifi ağır təklifdirsə, müəllimlik şəni həm uca şəndir. Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə daha ağırraqdır! Əsrimiz bir əsrdir ki, gündüzlər qiraət, gecələr kitabət müəllimlər üçün din borcudur”.

*I aparıcı:* - S.Qənizadə 1918-ci ildə Azərbaycan Milli Şurasının üzvü, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti parlamentin sədr müavini seçilmişdir. 1920-1925-ci illərdə Sovet hakimiyyəti dövründə Xalq Maarif Komissarlığında şöbə müdiri vəzifəsində çalışmışdır. 1925-1929-cu illərdə Bakı şəhər Xalq Maarifi İdarəsində inspektor işləmiş, hərbi məktəbdə və sənaye İnstitutunda dərs demişdir. 1937-ci ildə “xalq düşməni” kimi həbs edilərək güllələnmişdir.

*II aparıcı:* - Sultanməcid Qənizadə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan xalqının yetirdiyi böyük maarifçi, söz, fikir və əməl adamı, dilçi, metodist alim, tanınmış ədib və ictimai-siyasi xadim idi. Haqq dünyasına qovuşmasından uzun illər keçsə də o, əsərlərində, əməllərində və parlaq ideyalarında bu gün də yaşayır. Azərbaycanda müasir məktəb hərəkatının banisi və misilsiz carçısı, böyük maarifçi Sultanməcid Qənizadənin adı və əməlləri hər zaman yaşayacaq.

## *ƏSƏRLƏRİ*

### *Latın qrafikası ilə*

Seçilmiş əsərləri. - Bakı : Avrasiya Press, 2006. - 200 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Allah xofu : hekayə // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - B. : Şərq-Qərb, 2006. - C.2. - S. 158-184.

Allah xofu : hekayə // XIX-XX əsr Azərbaycan Ədəbiyyatı (Nəsr). - B. : Nurlar, 2012. - S. 360-377.

Qurban bayramı // Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. – Bakı : Elm, 1998. – S.177-196.

Məktubati-Şeyda bəy Şirvani // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - B. : Şərq-Qərb, 2006. - C.1. - S. 221-308.

Nağıl = Zalımam hay, zalımam // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. - B. : Pedaqoji Universitet, 2012. - S. 184-185.

Tülkü və Çaq-çaq bəy : Mənzum nağıl // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. - B. : Pedaqoji Universitet, 2012. -S. 185-208.

### *Kiril qrafikası ilə*

Gəlinlər həmayili. - Bakı : Yazıçı, 1986. - 271 s.

Nağıl : kiçikyaşlı uşaqlar üçün. - Bakı : Gənclik, 1986. - 18 s.

*HAQQINDA*

**Kitablar**

**Əsgərli F.** Sultan Məcid Qənizadə (1866-1937) : haqqında və əsərlərindən nümunələr // Azərbaycan uşaq ədəbiyyatı. - B. : Pedaqoji Universitet, 2012. - S. 183-208. - XIX əsrin sonu və XX əsrin əvvəlində uşaq ədəbiyyatı.

**Məmmədov X.** Sultan Məcid Qənizadə. - Bakı : Yazıçı, 1983. - 212 s. - kiril əlifbası ilə.

**Sultan Məcid Qənizadə** (1866-1942) : həyat və fəaliyyəti haqqında qısa məlumat // XIX-XX əsr Azərbaycan Ədəbiyyatı (Nəsr). - B. : Nurlar, 2012. - S. 359-360.

**Dövri mətbuatda**

**Xəlilzadə F.** Yazıçı, müəllim, mədəniyyət xadimi, yoxsa "xalq düşməni?" : Sultan Məcid Qənizadə - 140 // Azərbaycan. - 2006. - 26 aprel. - S.7.

**Mərdanov M.** Görkəmli maarif xadimi : Sultan Məcid Qənizadə haqqında // El. - 2011. - **N 1**. - S. 22-31.

**Nuri E.** Xaricdə təhsil alan ilk azərbaycanlı ziyalılar // Naşir. – 2015. - № 2 (sentyabr-oktyabr). – S. 63.

**Şirzadova M.** S.M.Qənizadə yaradıcılığının körpəlik pedaqogikası // Məktəbəqədər və ibtidai təhsil. - 2012. - **№ 2**. - S. 99-103. - Biblioqr. - S.103.

# Görkəmli maarif və mədəniyyət xadimi

(metidik vəsait)

**Kompyuter yığımı və**
**dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 36
Çapa imzalanmışdır: 15.10.2016
Tirajı:100
Pulsuz.